

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 107(23.994)

*10 iyun 2022-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvanda şəhid ailələrinə və qazilərə mənzillər və avtomobillər təqdim olunub





İyunun 9-da – Milli Qurtuluş Günü ərəfəsində Naxçıvanda 5 şəhid ailəsinə və qaziyə mənzillər, 6 qaziyə isə avtomobillər təqdim olunmuşdur.

Heydər Əliyev Muzeyində bu münasibətlə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış edərək demişdir: Azərbaycan xalqının tarixində mühüm əhəmiyyətə malik olan əlamətdar gün – Milli Qurtuluş Günü ərəfəsində şəhid ailələrinə və müharibə iştirakçılarına mənzillər və avtomobillər təqdim olunur. Milli Qurtuluş Günü müstəqil dövlətçiliyimizin və ərazi bütövlüyümüzün təminatıdır. 1993-cü il iyunun 15-də ümummilli liderimiz Heydər Əliyevin xalqın tələbi ilə siyasi hakimiyyətə qayıdışı Azərbaycanı parçalanmaq və işğal təhlükəsindən xilas edərək sabitlik və inkişafa qovuşdurmuşdur. Milli Qurtuluşun bəhrəsi olaraq güclü Azərbaycan dövləti və onun qüdrətli ordusu yaradılmış, torpaqlarımız işğaldan azad olunmuş, tarixi Zəfər qazanılmışdır. Ölkə Prezidenti cənab İlham Əliyevin də dediyi kimi, ***“1993-cü ildə ölkəmiz, demək olar ki, parçalanırdı, vətəndaş müharibəsi gedirdi və məhz Heydər Əliyevin fəaliyyəti nəticəsində biz bu ağır sınaqdan üzüağ çıxa bildik. Məhz bugünkü Zəfərin təməli, bax o vaxt qoyulmuşdur”.***



“Milli Qurtuluşdan başlanan yol xalqımızın rifahını yüksəltmiş, sosial islahatların əhatə dairəsi genişlənmişdir”, – deyən Ali Məclisin Sədri bildirmişdir ki, bu tədbirlər sırasında şəhid ailələrinə və müharibə iştirakçılarına göstərilən qayğı, onların sosial-məişət şəraitinin yaxşılaşdırılması xüsusi yer tutur. Təqdim olunan yeni mənzillər və avtomobillər də bu diqqətin daha bir ifadəsidir.

Ali Məclisin Sədri şəhidlərimizin əziz xatirəsinə ehtiramını bildirmiş, şəhid ailələrinə və qazilərə yeni mənzillərində rahat həyat arzulamış, onları qarşıdan gələn Milli Qurtuluş Günü, eləcə də mənzillər və avtomobillərlə təmin olunmaları münasibətilə təbrik etmişdir.

Sonra Ali Məclisin Sədri mənzillərin orderlərini və avtomobillərin açarlarını təqdim etmişdir.

Şəhid Vüsal Yusifovun həyat yoldaşı Nahidə Lətifova, şəhid Elməddin Həsənovun atası Elşən Həsənov, qazilərdən Miryaqub Seyidov, Əli Bayramov və avtomobillə təmin olunan qazi Sahil Hacıbəyli yaradılan şəraitə görə şəhid ailələri və qazilər adından minnətdarlıq etmişlər.

Avtomobillə təmin olunan qazi Hüseyn Həsənov demişdir: “Muxtar respublikada ərazi bütövlüyümüzün qorunması zamanı şəhid olanların ailələrinə və sağlamlığını itirmiş şəxslərə hər zaman dövlət tərəfindən diqqət və qayğı göstərilir. Bütün bunlar insan amilinə verilən dəyərin ifadəsi və əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan dövlət siyasətinin davamıdır. Bu gün ümummilli liderin yolu muxtar respublikada uğurla davam etdirilir, Naxçıvan günü-gündən inkişaf edir, insanların rifahı daha da yaxşılaşır. Milli Qurtuluş Günü ərəfəsində şəhid ailələrinə və qazilərə mənzil və avtomobillərin verilməsi bizim üçün ikiqat bayramdır. Mən Heydər Əliyev adına Hərbi Liseyin məzunu, Vətən müharibəsi iştirakçısıyam. Göstərilən diqqət və qayğıya görə ailəm və döyüş yoldaşlarım adından minnətdarlığımı bildirirəm”.

Sonda xatirə şəkli çəkdirilmiş, avtomobillərə baxış olmuşdur.

Şəhid ailələrinə və qazilərə verilən 2 və 3 otaqlı mənzillər Naxçıvan, Culfa və Ordubad şəhərlərində, Kəngərli rayonunun Qıvraq qəsəbəsindəki yeni yaşayış binalarında yerləşir.



Tam təmir olunan mənzillərə mebel dəstləri qoyulmuş, lazımi məişət şəraiti yaradılmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## “Naxçıvandan başlanan qurtuluş tarixi” adlı tədbir keçirilib

***Naxçıvan Dövlət Texniki Kollecində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin təşkilatçılığı ilə 15 İyun – Milli Qurtuluş Gününə həsr olunmuş “Naxçıvandan başlanan qurtuluş tarixi” adlı tədbir həyata keçirilmişdir.***

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin elmi katibi Nihad Tarverdiyev, Naxçıvan Dövlət Texniki Kollecinin direktoru, aqrar elmlər üzrə fəlsəfə doktoru Asəf Ruşanov, Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun, Yeni və ən



yeni tarix şöbəsinin kiçik elmi işçisi Nilufər Ağayeva və həmin institutun Etnoqrafiya şöbəsinin kiçik elmi işçisi Səbuhi Həsənovun çıxışları dinlənilmişdir.

Qeyd olunmuşdur ki, ulu öndər Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində işlədiyi dövrlərdə Naxçıvanın, ümumilikdə, Azərbaycanın siyasi, dövlətçilik tarixində mühüm dəyişikliklərə imza atmışdır. Ulu öndərin Naxçıvana qayıtması ilə Azərbaycan tarixinin yeni Heydər Əliyev dövrü və dövlət müstəqilliyinin əbədiliyinin təmin edilməsi mərhələsi başlandı.

Vurğulanıb ki, 1993-cü il iyunun 15-də ümummilli lider Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilmiş və ulu öndərin hakimiyyətə gəlişi ilə milli birliyin təmin edildiyi günü xalq özünün əsl xilaskarı şərəfinə Azərbaycanın ən yeni tarixinə Milli Qurtuluş Günü kimi yazıb. Ölkəmizdə müstəqil dövlət təsisatlarının yaradılması, beynəlxalq normalara əsaslanan demokratik, hüquqi dövlət quruculuğunun böyük vüsət alması, suveren Azərbaycanın əsas qanunu olan Konstitusiyanın qəbul edilməsi, vətəndaş cəmiyyətinin formalaşdırılması, milli təhlükəsizliyin təmin olunması və yeni iqtisadi kursun müəyyənləşdirilməsi ilə bağlı proseslərin müvəffəqiyyətli həlli dahi şəxsiyyət Heydər Əliyevin xidmətləridir.

Ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi hərtərəfli inkişaf strategiyası dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilərək ölkəmizin davamlı inkişafı təmin edilib, qarşıya qoyulan əsas məqsəd və hədəflərə nail olunub. Azərbaycan xalqı ulu öndərin siyasi kursunu davam etdirməklə Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə öz tarixinin yeni, şanlı səhifələrini yazmaqdadır.

Tədbirin sonunda Milli Qurtuluş Gününə həsr edilmiş filmə baxış olub.

**Xəbərlər şöbəsi**

*2022-ci ilin muxtar respublikamızda “Sənaye ili” elan edilməsini diyarımızda bu sahənin inkişafının yeni mərhələyə qədəm qoyması kimi də dəyərləndirmək olar. “Şərq qapısı” qəzeti ötən müddət ərzində dəfələrlə öz səhifələrində bu mövzuya yer ayırıb; redaksiyamıza bu sahə üzrə sahibkarlıq subyektlərinin nümayəndələri, iqtisadçı mütəxəssislər dəvət olunub, onların söhbətləri oxucularımıza təqdim edilib. Növbəti müsahibədə isə mövzu ilə bağlı suallarımızı iqtisad üzrə fəlsəfə doktoru, dosent, Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzinin direktoru Mehriban İmanova cavablandırır.*

*“Sənaye ili” – 2022*

# Muxtar respublikada sənayenin inkişafı davamlı sosial-iqtisadi tərəqqinin mühüm tərkib hissəsidir

*– İstərdik ki, söhbətimizə muxtar respublikada sənaye məhsulları istehsalının ilkin dövrləri barədə məlumat verməklə başlayaq...*

– Naxçıvan Muxtar Respublikası tarixən sənaye sahəsində zəngin ənənələrə malik olmuş, Azərbaycan iqtisadiyyatında aparıcı yerlərdən birini tutmuşdur. Tarixi mənbələrə görə, XVIII əsrdə Naxçıvanda, əsasən, dəriçilik, papaqçılıq, çəkməçilik, dəmirçilik, misgərlik, toxuculuq, ipəkçilik və sair peşə və sənətkarlıq sahələri mövcud olmuş və inkişaf etmişdir.



XIX əsrdə Naxçıvan və Ordubad şəhərləri diyarın ticarət və sənətkarlıq mərkəzləri kimi tanınmış, burada iqtisadiyyatın əsas sahələrini pambıqçılıq və ipəkçilik təşkil etmişdir. XX əsrin ortalarından başlayaraq bu sahə daha intensiv inkişaf yoluna qədəm qoymuş, ümummilli lider Heydər Əliyevin 1969-cu ildə Azərbaycanda hakimiyyətə gəlməsindən sonra yeni vüsət almışdır. 1970-1985-ci illərdə iqtisadiyyatın bütün sahələrinin inkişafı üçün Naxçıvan Muxtar Respublikasına 900 milyon manat sərmayə qoyularaq alt trikotaj fabriki, taxıl məhsulları və iri evtikmə kombinatları, yeni mineral sudoldurma, şüşə qablar, dəmir-beton məmulatları zavodları, Şahtaxtı daş karxanası, bütövlükdə, 22 sənaye müəssisəsi, qonşu İran dövləti ilə birgə Araz çayı üzərində iri su anbarı və elektrik stansiyası tikilib istifadəyə verilmişdir.

Yurdumuzun dilbər guşəsi olan Qarabağ bölgəsinə Ermənistanın ərazi iddiası və bununla bağlı başlanan müharibə, SSRİ-nin dağılması nəticəsində iqtisadi əlaqələrin pozulması və digər amillər nəticəsində 1990-cı illərin birinci yarısında Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatı, xüsusilə sənayesi ağır vəziyyətə düşdü. 1993-cü ildə ümummilli liderimiz Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı ilə bütün sahələrdə olduğu kimi, muxtar respublikanın sənayesində də əsaslı islahatlar aparılmış, sənaye məhsulunun həcmində də hər il dinamik artım olmuş və bu proses davam etməkdədir.

*– 1995-ci il sentyabrın 29-da “1995-1998-ci illərdə Azərbaycan Respublikasında dövlət mülkiyyətinin özəlləşdirilməsinin Dövlət Proqramı”nın qəbul edilməsi ölkəmizdə aparılan iqtisadi islahatların ən mühüm istiqamətlərindən biri olmaqla muxtar respublika iqtisadiyyatına öz müsbət təsirini göstərmişdir...*

– 1995-2001-ci illərdə aparılmış məqsədyönlü tədbirlər nəticəsində muxtar respublika iqtisadiyyatında yaranmış durğunluq tamamilə aradan qaldırılmış, 2001-ci ildə sənayenin ümumi məhsulunun həcmi 1995-ci illə müqayisədə 1,7 dəfə artmışdır. Muxtar respublikanın blokada şəraitində olmasına, xammalın və materialın daşınması sahəsində çətinliklərə baxmayaraq, alt trikotaj, tikiş və mebel fabriklərinin, emal müəssisələrinin, elektrotexnika zavodunun fəaliyyəti bərpa edilmiş, Badamlı-Vayxır-Naxçıvan mineral su kəmərinin çəkilməsi ilə mineral su istehsalı artmışdır. Şüşə qablar zavodunda energetika sənayesi üçün keramik izolyatorların, dəmir-beton zavodunda beton elektrik dirəklərinin, yol kənarına döşəmək üçün beton plitələrin və digər məmulatların istehsalına başlanılmışdır. 1999-cu ildə Ordubad rayonunun Parağaçay və Ağdərə mədən yataqlarının kəşfiyyat və istismarı üzrə Böyük Britaniya şirkətləri ilə bağlanmış müqavilə muxtar respublikamızda mədən sənayesinin bərpasına təkan vermiş, tikinti materialları, dəmir-beton, kərpic, travertin, mərmər istehsalına başlanılmış və nadir tikinti məhsullarının dünya bazarına çıxarılması təmin edilmişdir.

*– Sonrakı illərdə muxtar respublikada davamlı inkişafın təmin edilməsi, sahibkarlıq fəaliyyətinə meylin stimullaşdırılması və bu istiqamətdə bütün cəhdlərin hərtərəfli dəstəklənməsi sahəsində mühüm tədbirlər həyata keçirilmiş, bu sahədə məqsədli proqramlar hazırlanmışdır.*

– Muxtar respublikanın sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilən Dövlət proqramlarının uğurla həyata keçirilməsi müəyyən edilmiş məqsədlərə çatmaq üçün öz töhfəsini verdi. 2004-2021-ci illərdə müasir texnologiyalara və qabaqcıl təcrübəyə əsaslanan yeni müəssisələrin yaradılması nəticəsində istehsal edilən sənaye məhsullarının çeşidi və rəqabətqabiliyyətliliyi də sürətlə yüksəldi. Əldə olunan nailiyyətlərin rəqəmlərlə ifadəsi onu göstərir ki, ümumilikdə, bu müddət ərzində sənaye məhsulları istehsalı 42 dəfə artıb. Tarixə nəzər salarkən görürük ki, Naxçıvan Muxtar Respublikası aqrar iqtisadiyyatdan sənaye istehsalına qədər uzun bir inkişaf yolu keçmiş və 2008-ci ildən etibarən ilk dəfə olaraq sənaye məhsulunun istehsalı kənd təsərrüfatı məhsulunun istehsalını 2,6 dəfə ötmüşdür. Bunun səbəblərindən biri sənayenin baza şərti olan xammal baxımından muxtar respublikanın böyük üstünlüklərə malik olmasıdır.

Həyata keçirilən uğurlu iqtisadi siyasət nəticəsində muxtar respublikada fəaliyyət göstərən sənaye müəssisələrinin sayı müstəqillik illərinin əvvəli ilə müqayisədə 46-dan 442-yə çatdırılmış, bu müəssisələrin istehsal etdiyi sənaye məhsulunun həcmi isə 1995-ci illə müqayisədə 119 dəfə artmışdır. 1996-cı ildə muxtar respublikada cəmi 10 adda məhsul istehsal olunurdusa, yeni istehsal müəssisələrinin yaradılması nəticəsində bu gün həmin rəqəm 384-ə çatdırılmışdır ki, bunun da 127 növü ərzaq, 257 növü isə qeyri-ərzaq məhsullarıdır. Hazırda əhalinin 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla, 350 növdə məhsula olan tələbatı tamamilə yerli imkanlar hesabına ödənilir.

*– Bildiyimizə görə, yeni sənaye müəssisələrinin yaradılması istiqamətində görülən tədbirlərin nəticəsində təkcə 2021-ci ildə muxtar respublikada dövlət dəstəyi ilə iqtisadi fəaliyyətin müxtəlif sahələrində 142 layihə üzrə istehsal və xidmət obyektləri yaradılmışdır.*

– Sənayenin ümumi məhsulunun tərkibində qeyri-dövlət sektorunun xüsusi çəkisinə görə 93 faizlik payla Naxçıvan 14 iqtisadi rayon arasında ilk yerdədir. Sənaye məhsulunun ümumi daxili məhsulda xüsusi çəkisi 2004-cü ildəki 10,6 faizdən 2021-ci ildə 27,1 faizə çatmışdır. Ümumilikdə, sənaye sahəsi üzrə əldə edilmiş nailiyyətlərə nəzər salsaq görərik ki, müstəqillik illəri ərzində sənaye məhsulunun ümumi həcmi 270 dəfə, sənaye sahəsində işləyənlərin orta sayı 9,3 dəfə, sənaye sahəsində bir işçiyə hesablanmış ortaaylıq əməkhaqqı 48,3 dəfə artımla müşahidə olunmuşdur.

Bu gün muxtar respublikada sənayenin sahə strukturunda əsas yerə sahib olan yeyinti sənayesi içki və tütün də daxil olmaqla bir sıra qida məhsullarının istehsalını, yüngül sənaye



isə toxuculuq, tikiş, dəri, dəri məmulatları və ayaqqabı istehsalını əhatə edir. Sənayedə yerli kənd təsərrüfatı məhsullarının emalı və faydalı qazıntı hasilatı xüsusi yer tutur. Regionun tikinti materiallarının böyük miqdarda ehtiyatı burada tikinti məhsullarına olan tələbatın tamamilə yerli istehsal hesabına təmin edilməsinə imkan verir. Son illər artan istehsal müəssisələri sırasında 2010-cu ildə istismara verilmiş Naxçıvan Avtomobil Zavodu əhəmiyyətli yerlərdən birini tutmaqla ölkəmizdə maşınqayırma sənayesinin gücləndirilməsinə geniş imkanlar açır.

*– Sənayenin inkişafını şərtləndirən əsas amillər barədə də ətraflı məlumat verməyinizi xahiş edirik...*

– İnvestisiya prosesi iqtisadi artımı təmin edən mühüm proses olduğundan 2020-ci ildə 2005-ci ilə nisbətən muxtar respublikada sənaye sahəsinə yönəldilən investisiyaların həcmi 7,1 dəfə artmış, əsas fondların dəyərində isə 7,5 dəfə yüksəlmə qeydə alınmışdır. Makroiqtisadi sabitliyin iqtisadi artıma doğru istiqamətlənməsi nəticəsində ümumi daxili məhsulun yüksəlməsi investisiya potensialının da genişləndirilməsinə, əldə edilən gəlirin investisiyalara köçürülməsi isə sahibkarlığın inkişafı, infrastrukturun yaradılması, xidmətlərə çıxışın asanlaşdırılmasına, ixracın böyüməsinə müsbət təsir göstərib. 2009-cu ildən etibarən xarici ticarət dövriyyəsinin strukturunda köklü dəyişikliyin baş verməsi muxtar respublikada yerli məhsulların rəqabətqabiliyyətliliyini artırmaqla onun tərkibində müsbət saldo yaranıb, regiona valyuta axını təmin edilib. Bu müddət ərzində sahibkarlıq subyektlərinin beynəlxalq əlaqələrinin genişləndirilməsi və yerli istehsal məhsullarının xarici ölkələrdə tanıdılması üçün sahibkarların yerli və xarici ölkələrdə keçirilən biznes-forum, konfrans və sərgilərdə iştirakı təmin edilib. Blokada şəraitində olan muxtar respublikamızda istehsal edilən bir çox kənd təsərrüfatı və sənaye məhsullarının Türkiyə Respublikasına rüsumsuz ixracı barədə qərar qəbul olunub. Bu gün muxtar respublikanın ayrı-ayrı müəssisələrində istehsal edilən bəzi məhsullar Rusiya, Gürcüstan, Birləşmiş Ərəb Əmirlikləri, İraq, Oman Sultanlığı, Yəmən, Əfqanıstan və digər ölkələrə ixrac olunur.

*– Sənayenin bəzi sahələrini aqrar sahədən ayrı təsəvvür etmək mümkün deyil.*

– 2020-ci il statistikasına əsasən emal sənayesi bütün sənayenin 93,5 faizini təşkil edir. Emal sənayesinin tərkibində yeyinti sənayesi 60 faizlik paya sahibdir. Sənayenin, demək olar ki, bütün emaledici sahələri məhz kənd təsərrüfatına bağlıdır. Yüngül və yeyinti sahələrinin inkişafı kənd təsərrüfatının istehsal həcmindən asılıdır. Bunu nəzərə alaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı” və “2021-2025-ci illərdə muxtar respublikada kənd təsərrüfatı məhsullarının istehsalı, emalı və ixracının stimullaşdırılmasına dair Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında sərəncamlar imzalayıb. Meyvə və tərəvəz məhsullarının istehsalı ilə yanaşı, yerli xammala əsaslanan yun tədarükü və iplik istehsalı müəssisəsinin yaradılması, qarğıdalı yağı istehsalına başlanılması, gülab və gül yağı istehsalının dəstəklənməsi, müasir texnologiyalar



əsasında qurudulmuş və dondurulmuş meyvə-tərəvəz emalı müəssisələrinin qurulması və sair kimi məsələlər bir-birini tamamlayan proqramlarda öz əksini tapıb. Nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi paralel şəkildə sənayeni daha da inkişaf etdirmək imkanları yaradır. Sənaye quruculuğu istiqamətində muxtar respublika rəhbərinin yüksək siyasi iradə nümayiş etdirməsinin təzahürü kimi 2022-ci il muxtar respublikamızda “Sənaye ili” elan olunub. Hazırkı mərhələ müasir çağırışlar və yeni təşəbbüslər nəzərə alınmaqla sənayenin modernləşdirilməsi və şaxələndirilməsi məqsədilə bir sıra tədbirlərin həyata keçirilməsi, o cümlədən mövcud təbii və iqtisadi resursların təsərrüfat dövriyyəsinə cəlb edilməsi, ənənəvi sənaye sahələri ilə yanaşı, yeni istehsal sahələrinin yaradılması, rayonlarda sənaye potensialının gücləndirilməsi, sənayenin innovasiyalar əsasında inkişafını təmin edəcək imkanların formalaşdırılmasını zərurətə çevirir. Bu da iqtisadiyyatın əsas prioriteti hesab olunan müasir sənaye quruculuğuna innovativ, elm tutumlu, müasir texnologiyalara əsaslanmağın gələcək inkişaf hədəflərimizdən biri olduğunu göstərir.

*– Bir iqtisadçı, mütəxəssis kimi yeni yaranan sənaye müəssisələrinin əhəmiyyəti barədə fikirləriniz də oxucularımız üçün maraqlı olardı...*

– Muxtar respublikada sənaye məhəllələrinin yaradılmasının müəyyən edilməsi yeni iş yerlərinin açılması, istehsalın genişləndirilməsi, istehsal prosesinin təşkilində infrastruktur xərclərinin azaldılması və rayonların sosial-iqtisadi inkişafı baxımından xüsusi əhəmiyyət daşıyır. Prezident cənab İlham Əliyevin müəyyənləşdirdiyi yeni sənayeləşmə siyasətinə uyğun olaraq Şərur Sənaye Məhəlləsinin yaradılması rəqabətqabiliyyətli və yüksək texnologiyalara əsaslanan sənaye istehsalının artırılması, elm tutumlu sənaye sahələrinin inkişafı və sahibkarlar üçün əlverişli şəraitin yaradılmasına geniş imkanlar açmışdır. Sənayeləşmədə əsas baza sütunları innovativ modellər kimi sənaye məhəllələrinin, texnoparkların yaradılmasından ibarətdir. Bu modellər mövcud və yeni biliklərin, ixtiraların texnologiyalara və texnologiyaların kommersiya məhsullarına çevrilməsinə, elm tutumlu məhsullar vasitəsilə texnologiyaların sənaye sferasına ötürülməsinə, biznes sahəsində müəssisələrin dəstəklənməsinə, sənayenin strukturunun yenidən qurulmasına, rayonların qeyri-bərabər inkişaf səviyyəsinin azalmasına, məşğulluq probleminin həllinə, elmi-texniki nailiyyətlərin sürətli tətbiqinə gətirib çıxarır. Sənaye məhəlləri ayrıca bir ərazidə fəaliyyət göstərməsinə və ixtisaslaşmış güclü sənaye rayonuna çevrilməsinə səbəb olur. Şərur Sənaye Məhəlləsinin də cari ildə istifadəyə verilməsi “Sənaye ili”nə bir töhfə olacaqdır.

*– Maraqlı söhbət üçün sağ olun.*

**Muxtar MƏMMƏDOV**
*Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti*

## Qədim Cümə məscidində təmir-bərpa işləri davam etdirilir

Muxtar respublikamızda tarixi-mədəni irsimizin, adət-ənənələrimizin, milli dəyərlərimizin qorunması və təbliğinə yönəldilən tədbirlər diyarımızda həyata keçirilən tikinti-quruculuq və təmir-bərpa işlərinin tərkib hissəsinə çevrilib. Bu istiqamətdə həyata keçirilən belə tədbirlərin davamı kimi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən Ordubad şəhərindəki qədim Cümə məscidi bərpa edilir. Ötən müddət ərzində muxtar respublika rəhbəri bir neçə dəfə inşaat meydançasında olmuş, dəyərli tövsiyələrini vermişdir.

Şəhərin mərkəzi meydanında ucalan məsciddə bərpa işləri zamanı ibadət ocağının memarlıq quruluşu saxlanılaraq dindarlar üçün lazımi şərait yaradılır. Sahəsi 890 kvadratmetr olan məsciddə axund otağı, qadın və kişi ibadət zalları və digər otaqlar yerləşəcək. Məscidin həyətində də geniş abadlıq işləri aparılmaqdadır. Qədim abidədə fasad divarlarının və binadaxili divarların yenilənməsi, məscidin dam örtüyünün yenidən qurulması, ətrafdakı tikililərin təmir-bərpa edilməsi başa çatdırılıb. Hazırda bina ətrafındakı divarlar milli me-



marlıq üslubunda yenilənir, piyadaların hərəkəti üçün səkillər salınır, pəncərələrin quraşdırılması davam etdirilir. Təmir-bərpa prosesində milli və dini memarlıq elementlərindən istifadə edilərək binanın tarixiliyi və müasirliyi vəhdət şəklində gözlənilir.

**Xəbərlər şöbəsi**

***Məlum olduğu kimi, 1990-cı illər ictimai-siyasi baxımdan çox ziddiyyətli, mürəkkəb bir dövrdür. Bu dövr həm də milli inkişaf və perspektiv etibarilə əhəmiyyətli bir mərhələni təşkil edir. Bu illər, eləcə də özünəməxsus xüsusiyyətlərə malik ədəbi-bədii inkişaf mərhələsidir desək, yanılmarıq. Bu ədəbi mərhələ milli özünüdərk, istiqlaliyyət və yeni konseptual inkişaf etibarilə başlıca əhəmiyyət kəsb etməkdədir. Yeni milli inkişaf dönəminin başlanğıc mərhələsi olan bu illər ədəbiyyat üçün də yeni mərhələnin başlanğıcı, hətta onun əsaslı zəmini, təşəkkül mərhələsi hesab edilir.***

# Müstəqilliyin ilk illəri həm də Naxçıvanda ədəbi inkişaf və təşəkkülün başlanğıc dövrüdür




Ümumiyyətlə, 90-cı illər Azərbaycan tarixi üçün mühüm mərhələdir və eləcə də tarixdə böhran illəri, "itirilmiş illər" kimi xarakterizə olunaraq qalmaqdadır. Lakin Naxçıvan üçün 90-cı illər yeni ictimai epoxanın başlanğıcı, siyasi inkişaf və dövlətçilikdə müstəqillik mücadiləsi dönəmidir. Akademik İsmayıl Hacıyev yazır: "Azərbaycan tarixində 1991-1993-cü illər "itirilmiş illər" kimi xarakterizə olunur. Bu sözləri Naxçıvana aid etmək olmaz, çünki ulu öndər Heydər Əliyevin Naxçıvanda yaşaması, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işləməsi Naxçıvanı gözləyən bəlalardan xilas etdi və qoruyub saxladı". Görkəmli alimin fikirlərinə istinadən qətiyyətlə deyə bilərik ki, müdrik liderin Naxçıvanda olduğu 90-cı illər, nəinki Naxçıvanı itirməkdən və blokadanın çətinliklərindən xilas etdi, həmçinin bu illərdəki ictimai-siyasi, milli müstəqillik və dövlətçilik hərəkatı, bütövlükdə, Azərbaycanda dövlət müstəqilliyinin qazanılması yolunda bir hərəkat və mücadiləyə çevrildi.

Bu illərdə yaranan böhran – ermənilərin Azərbaycana yeni torpaq iddiaları, Sədərəyə silahlı hücumdan başlayaraq Azərbaycan xalqına qarşı elan edilməmiş qanlı müharibə, 20 Yanvar faciəsinin baş verməsi, hakimiyyətin milli mövqe nümayiş etdirməməsi və başqa məsələlər ölkədə ciddi böhranla müşayiət olunmuşdu. SSRİ-nin imperiya niyyətinin təzahürü olaraq 20 yanvarda azadlıq, istiqlaliyyət naminə mübarizə aparan çoxmilyonluq Azərbaycan xalqına qarşı hərbi hücum həyata keçirməsi müstəqillik ideyasını qətiləşdirdi. Azərbaycanda düşmən qüvvələrin həyata keçirdiyi xain tədbirlərdən, 20 Yanvar faciəsindən xəbər tutan görkəmli dövlət xadimi Heydər Əliyev qətiyyət və cəsarət göstərərək Moskvada Azərbaycan nümayəndəliyinə gələrək jurnalistlər üçün brifinq keçirdi və buradan Azərbaycanda baş verən 20 Yanvar faciəsi barədə dünyaya məlumat yaymağa nail oldu. Dahi şəxsiyyət Heydər Əliyev mənsub olduğu xalqının, illərlə xidmət etdiyi Vətəni və dövlətinin yanında olmaq üçün 1990-cı il iyul ayının 20-də Azərbaycana, Bakı şəhərinə gəldi. Lakin o vaxt Azərbaycana rəhbərlik edən sovet imperiyasının ələltiləri onu doğma şəhərinə – qurub-yaratdığı Bakı şəhərinə düşməyə imkan vermədilər. Azərbaycan rəhbərliyinin görkəmli dövlət xadiminin doğma Vətənə gəlməsinin qarşısını almaq cəhdi ulu öndəri canı və qanı qədər sevdiyi, doğulub-böyüdüyü ata torpağına, o zaman erməni işğalçılarının torpaq iddialarının başında gələrək daha çox hücumlara məruz qalan, blokadaya salınaraq qazsız-işıqsız, yolsuz ölümə məhkum edilən Naxçıvana, naxçıvanlıların köməyinə gətirdi. 1990-cı il iyul ayının 22-də Naxçıvana gələn xalqın böyük oğlu Heydər Əliyevi Naxçıvan böyük sevinclə qarşıladı. Ulu öndər siyasi məktəbinin layiqli davamçısı və məsləkdaşı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Möhtərəm Heydər Əliyevin fəal siyasətə QAYIDIŞI o dövrə təsadüf edir ki, daim xalq üçün döyünən, yaşayan ürək gəzdirən bu böyük şəxsiyyətin susması daha mümkün deyildi. ...Moskvadan Naxçıvana QAYIDIŞ o dövrün bəzi qəzetlərində yazıldığı kimi əyalət mərkəzinə yox, VƏTƏNƏ QAYIDIŞ idi; böyük siyasətə yenidən və fəal şəkildə, birmənalı, ardıcıl, qətiyyətli QAYIDIŞ idi".***

Buradan Azərbaycan Ali Sovetinə deputat və Naxçıvan Muxtar Respublikası Ali Sovetinə Sədr seçilən dahi siyasətçi Heydər Əliyev Naxçıvanda Azərbaycanın gələcək inkişaf və dövlətçilik yolunu təyin edəcək milli qərarlar verməyə nail oldu. Naxçıvan MSSR Ali Sovetinin noyabr sessiyasında qəbul edilən qərarlar Azərbaycan xalqının milli dirçəlişinin nüvəsini təşkil etdi. Belə ki, ilk dəfə Naxçıvan Ali Sovetin rəsmən bəyan etdiyi qərarla SSRİ-nin tərkibindən çıxdığını elan etdi. Sovet imperiyasının xain planlarına cavab olaraq həyata keçirilən bu milli tədbirin davamı kimi Naxçıvan MSSR adından onun sovet ittifaqına və sosialist quruluşuna mənsubiyyətini ifadə edən "sovet sosialist" sözləri çıxarıldı. Məhz elə həmin iclasda ulu öndərin sədrliyi və şəxsi təşəbbüsü ilə "Naxçıvan Muxtar Respublikası" elan edilən muxtar dövlətin ali orqanı olan Ali Sovet "Milli Məclis" adlandırıldı, Azərbaycanın qırmızı oraq-çəkicli sovet bayrağı endirilərək salona Azərbaycan Xalq Cümhuriyyətinin ay-ulduzlu üçrəngli bayrağı təntənəli surətdə gətirildi və Ali Məclisin üzərində qaldırıldı. Azərbaycan Respublikası Ali Sovetinə də göndərilən təkliflərdə artıq xalqın sovet imperiyasının asılılığından xilası və milli dövlətçilik quruluşu istiqamətində tövsiyələri yer almışdı. Məhz bu müstəqillik tarixi hadisələr Naxçıvan nümunəsini Azərbaycan xalqının dəstəkləməsi, nəhayət, 1991-ci il oktyabr ayının 18-də dövlət müstəqilliyinin elan edilməsi ilə nəticələndi. Təəssüf ki, bu illərdə Azərbaycan xalqı yüzlərlə qurban verməklə, böhran və sarsıntılar içərisində əzab çəkməklə bərabər, əzəli

*Şair-dramaturq Həsənalı Eyvazlının "Koroğlunun Çənlibelə qayıdışı" pyesi əsasında hazırlanan eyniadlı tamaşadan*



Vətən torpaqlarını da itirərək daha dərin bəlalara sürüklənirdi. Belə məqamda Azərbaycan xalqı üzünü Naxçıvana – Azərbaycanın xilaskarlıq ümidi olan dahi Heydər Əliyevə çevirmişdi və ondan davamlı kömək istəyirdi. Belə bir situasiyada, Azərbaycanın parçalanma və yoxolma təhlükəsi ilə üzbəüz olduğu bir şəraitdə xalqın təkidli tələbi ilə dahi şəxsiyyət Heydər Əliyev 1993-cü il iyun ayının 15-də Bakıya qayıtdı və Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətdə yer aldı. Xalq müdrik rəhbərin bu qayıdışını Azərbaycan tarixində Böyük Qayıdış və Xilaskarlıq missiyası olaraq qiymətləndirdi.

Ulu öndər Heydər Əliyevin Naxçıvandakı fəaliyyəti ağır blokada şəraitində yaşayan muxtar respublikanın bütün çətinliklərə sinə gərməsi və inkişafına imkanlar yaratdı. Dahi lider uzaqgörənlik və müdriklik nümayiş etdirərək nəinki muxtar respublikada əhalinin sosial-iqtisadi çətinlikdən xilas olmasına, həm də mədəni və mənəvi inkişafına da imkanlar yaratdı. Ulu öndərin rəhbərliyi altında Naxçıvanın dahi, müdrik şəxsiyyətlərinin yubileylərinin keçirilməsi, əsərlərinin çapı, təhsil və tədris şəraitinin yaxşılaşdırılması, teatr və müxtəlif mədəni sahələrin dirçəldilməsi istiqamətində davamlı və uzaqgörən tədbirlər həyata keçirilmişdi. Naxçıvan Dövlət Universitetinin 30 illik yubileyinin keçirilməsi də təhsil və elmin inkişafına göstərilən qayğılar sırasında idi. Belə bir mədəni dirçəliş şəraitində ədəbi mühitdə də inkişaf özünü təzahür etdirirdi.

Baş verən ictimai proseslər, müstəqillik uğrunda mübarizə hərəkatı, milli şüurda oyanış Naxçıvanda ədəbi mühitin formalaşmasına da güclü təsir göstərmişdir. 1991-ci ildən sonra ölkəmizdə yaranan ədəbiyyat müstəqillik dövrü ədəbiyyatıdır. Amma bu da qəti bir fikirdir ki, Naxçıvanda müstəqilliyin tarixini 1990-cı ildən – ulu öndər Heydər Əliyevin məhvərində uğurla dönən zaman çərçivəsindən hesablamaq daha doğru olar. Bu mənada,1990-cı illərdən başlayaraq Naxçıvanda yaranan ədəbiyyat müstəqillik dövrü ədəbiyyatı idi. Müstəqillik dövrü ədəbiyyatı istər keyfiyyətcə, mövzu və formaca, istərsə də məzmun və problemcə, istərsə də ideya və ideoloji konsepsiya cəhətindən fərqli və özünəməxsus idi. Hər şeydən əvvəl, müstəqillik dövrü ədəbiyyatı əvvəlki böhran illərinin ədəbiyyatında mövcud olan ideoloji konsepsiyasızlıqdan fərqlənir. Ulu öndər Heydər Əliyevin müdrik fikirləri və təcrübəsi üzərində müəyyənləşən konsepsiya sayəsində müstəqillik dövrü ədəbiyyatı Azərbaycançılıq məfkurəli konsepsiya üzərində yaranmağa və inkişaf etməyə başlamışdır. Bu mənada, akademik İsa Həbibbəyli müstəqillik dövrü ədəbiyyatı haqqında yazır: "Müstəqillik dövrünün Azərbaycan ədəbiyyatı müstəqil dövlət quran xalqın ədəbiyyatıdır və bütün dəyərləri, keşməkeşli həyat yolu, mübarizə və uğurları ilə bu həqiqətləri əks etdirir".

Qətiyyətlə demək olar ki, ictimai şərait ədəbi inkişafın məhvəridir. Mövzu sifarişləri ictimai mühitdən ədəbiyyata daxil olaraq dövrün salnaməsini tərtib edir. Bu mənada, deməliyik ki, Azərbaycanın digər əraziləri ilə müqayisədə Naxçıvanda ədəbi mühit ulu öndər Heydər Əliyevin buradakı uzaqgörən dövlətçilik tədbirləri səbəbilə daha uğurla və qaynar inkişaf edirdi. Azərbaycanın digər regionlarında ədəbi mühitdə də böhran davamlı olaraq özünü hiss etdirsə də, Naxçıvanda ədəbiyyat adamları daha böyük ümid və inamla qələmə sarılaraq müxtəlif mövzularda əsərlər yaradırdılar. İctimai-siyasi böhran Azərbaycanın əsas hissəsində ədəbi inkişafın böhranına səbəb olsa da, Naxçıvandakı dövlətçilik tədbirləri yeni bir ədəbiyyatın – müstəqillik ideyaları ilə zəngin yeni bir düşüncənin və ədəbiyyatın formalaşmasına təkidli təsir edirdi.

Müstəqillik dövrü Naxçıvan ədəbi mühiti özünəməxsus inkişaf, mövzu və ideya-bədii keyfiyyətləri ilə səciyyələnir. Bu dövrdə Naxçıvan ədəbi mühitində tarixi-xronoloji cəhətdən mövzu-problematika olaraq torpaqların işğala məruz qalması, müharibə şəraiti və insan tələfatı problemləri olsa da, daha əzəmətli, daha əhatə ilə müşayiət olunan mövzu dahi Heydər Əliyevin xilaskarlıq missiyası və onun uzaqgörən, müdrik fəaliyyətinin tərənnümü və vəsfi, ona bəslənilən sonsuz ümumxalq məhəbbəti və gələcəyə olan intəhasız ümidlər təşkil edirdi. Bu dövrdə ədəbi mühitdə Kəmalə Ağayeva, Hüseyn İbrahimov, Həsən Fətullayev, Hüseyn Razi kimi ədəbiyyatın yaşlı nümayəndələri, o cümlədən Elman Həbib, Vaqif Məmmədov, İbrahim Yusifoğlu, Asim Yadigar, Xanəli Kərimli, Həsənağa Eyvazlı, Elmira Məmmədova və digər çoxsaylı ədəbiyyat adamları yaradıcılıq fəaliyyəti göstərirdilər. Onların bir çoxu həm bilavasitə ictimaiyyətlə birlikdə ulu öndərin əhatəsində milli dövlətçilik və müstəqillik uğrunda göstərilən fəaliyyətdə həmrəylik nümayiş etdirir, həm də bu fəaliyyətdən doğan amal, ideya və təəssüratları öz yaradıcılıqlarında əks etdirirdilər. Bu dövrdə ədəbiyyat həm mövzu-problem, məzmun baxımından, həm də forma etibarilə inkişaf nümayiş etdirir, ənənə ilə bərabər novatorluq da təzahür olunurdu. Bu mərhələdə poeziya digər sahələrə nisbətdə daha fəal inkişaf edir, ictimai hadisələrə, yaranmış problemlərə, ictimai duyğulara daha çevik reaksiya göstərirdi. Poeziyanın inkişafında həm xalq ədəbiyyatının, həm də klassik ədəbiyyatın ənənələrinə sədaqətlə bərabər, dünya poeziyasının mütərəqqi ənənələrindən də faydalanmaq, novatorluq özünü təzahür etdirirdi. Hüseyn Razinin, Kəmalə Ağayevanın, Elman Həbibin, Vaqif Məmmədovun, Asim Yadigarın, İbrahim Yusifoğlunun və digər şairlərin poeziyasında ümumi ədəbi mühitin keyfiyyət və xüsusiyyətləri uğurla təzahürünü tapırdı. Hüseyn İbrahimov, Həsən Fətullayev kimi qocaman yazıçılarla bərabər, Həmid Arzulu, Akif Axundov, Güllü Məmmədova, Akif İmanlı, Sona Teymurbəyli və başqa yazıçıların simasında bədii nəsr də öz inkişafından qalmır, maraqlı nəsr əsərləri, dövrün ab-havasına uyğun mövzu və problemlər, yaddaqalan qəhrəman və xarakterlər ortaya çıxırdı. Bu, inkişafın və bədii nəsrin dövrə, zamana fəal reaksiyasının təzahüründən doğurdu ki, aktual mövzu və problemlərin başlıca yer aldığı maraqlı roman və povestlər də yaranırdı. Az da olsa, dramaturgiyaya da müraciət edilir, maraqlı dram əsərlərində dövrün ümumi məsələləri və mənzərəsinə öz münasibətini bədii şəkildə göstərməyə çalışırdı. Bu baxımdan tam əminlik və qətiyyətlə deyə bilərik ki, 1990-cı illər, ümumiyyətlə isə müstəqillik dövrünün ədəbi inkişafında ulu öndər Heydər Əliyev obrazı və onun şəxsiyyətinə, fəaliyyətinə, quruculuq və tərəqqi missiyasına, onun təzahürlərinə həsr olunan mövzu və əsərlər digərlərindən daha qabarıq, daha fəal olmuş və başlıcalıq təşkil etmişdir. Ümumiyyətlə isə Naxçıvan ədəbi mühiti müstəqillik dövründə mövzu-ideya istiqamətində yaddaqalan yeniliklər qazanmışdır. Həmin dövrdə analitik düşüncənin məhsulu olan əsərlərin bolluğu, mövzulara yeni baxış prizmasından yanaşma, azad Vətən probleminin estetik idealların əsasında dayanması diqqəti çəkir.

*Beləliklə, 90-cı illər Naxçıvan ədəbi mühiti üçün yeni təşəkkül və inkişaf mərhələsini təşkil edir. Bu inkişaf və təşəkkülün məhvərində isə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin uzaqgörən fəaliyyəti və müdrik qərarları dayanır. Azərbaycan xalqının tarixi taleyi və müstəqillik dövrü mücadiləsi fonunda ulu öndər Heydər Əliyevin xilaskarlıq missiyası və liderlik obrazı bədii əksin ön planında yer tutur. Tam qətiyyətlə demək olar ki, müstəqillik dövrü Naxçıvan ədəbi mühitinin inkişafla müşayiət olunan ədəbi prosesində baş obraz Vətən – Azərbaycanın özü, ana mövzusunu isə azadlığına qovuşan Vətənin o illərdəki problem və qayğıları təşkil edirdi.*

**Nurlana ƏLİYEVA**
***"Naxçıvan" Universitetinin rektoru, filologiya üzrə fəlsəfə doktoru, dosent***

## Ötən ay 148 nəfərə əmək pensiyası təyin olunub

Muxtar respublikada əhalinin həssas qrupuna aid olan əmək pensiyaçılarının sosial müdafiə məsələləri daim diqqət mərkəzində saxlanılır. Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu bu istiqamətdə üzərinə düşən vəzifə və tapşırıqların icrasına çalışır. Fond ötən ay ərzində pensiya və müavinətlərin qanunvericilikdə nəzərdə tutulmuş qaydada təyinatı, əmək fəaliyyətinə yeni başlayan işçilərin fərdi uçot sistemində qeydiyyata alınması, həmçinin pensiya və müavinətlərin ödənilməsi işlərini davam etdirib. Əmək pensiyaları və məcburi dövlət sosial sığorta haqları hesabına müavinətlər vaxtından əvvəl maliyyələşdirilib, pensiyaların ödənilməsinə 15 milyon 554 min manat, müavinətlərin ödənilməsinə isə 383 min manat vəsait xərclənib. Bundan başqa, qulluq stajına görə əlavələr alan əmək pensiyaçılarına pensiya məbləğlərinin 10 faizi məbləğində maddi yardımın ödənilməsi də təmin edilib.

Hesabat ayında müvafiq orqan tərəfindən məcburi dövlət sosial sığortahaqqı üzrə fondun xəzinə hesabına 10 milyon 490 min 900 manat vəsait daxil olub ki, bu da nəzərdə tutulan məbləğdən 13,7 faiz çoxdur. Ümumilikdə, pensiya və müavinətlərin ödənişinə ayrılan vəsaitin 65,8 faizi məcburi dövlət sosial sığortahaqqı olaraq muxtar respublikada yığılıb. Ötən ay ərzində 2 hüquqi və 243 fiziki şəxs məcburi dövlət sosial sığorta ödəyicisi kimi uçota alınıb. Həmçinin fərdi uçot sistemi sahəsində də işlər davam etdirilib və 233 yeni əmək fəaliyyətinə başlayan sığortaolunana fərdi şəxsi hesab açılıb.

Müvafiq dövr ərzində pensiyaların qanunvericilikdə nəzərdə tutulmuş qaydada təyinatı üçün işlər görülüb, 110-u yaşa, 15-i sağlamlıq imkanlarının məhdudluğuna, 23-ü ailə başçısını itirdiyinə görə, ümumilikdə,148 vətəndaşa əmək pensiyası təyin olunub. Pensiya təyin edilən vətəndaşlardan 135-nə qanunvericiliyə əsasən ilk dəfə təyinat olub, 13-nə isə pensiya növündə dəyişiklik edilib. Qanunvericiliyə uyğun olaraq 1307 sığortaolunana məcburi dövlət sosial sığorta haqları hesabına müavinət ödənilib.

Ay ərzində deputatların, hərbi qulluqçuların, məhkəmə və hüquq-mühafizə orqanları əməkdaşlarının icbari şəxsi sığortası ilə bağlı müvafiq işlər görülüb. Dövlət icbari şəxsi sığortası üzrə ödənişlər həyata keçirilib və qanunla müəyyən edilmiş məbləğdə vəsaitlərin həmin şəxslərin bank hesabına köçürülməsi təmin olunub. Sığortaedənlər tərəfindən dövlət icbari şəxsi sığortası üzrə 110 min 400 manat vəsait fondun xüsusi hesabına köçürülüb.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

## Miqrasiya proseslərinə nəzarət gücləndirilir

Naxçıvan Muxtar Respublikasında miqrasiya proseslərinə dövlət nəzarətinin gücləndirilməsi, qanunsuz miqrasiyanın qarşısının alınması məqsədilə Dövlət Miqrasiya Xidməti tərəfindən həyata keçirilən tədbirlər may ayında da davam etdirilib. Xidmət tərəfindən muxtar respublika ərazisində qanunsuz yaşayan və qeydiyyatsız olan, habelə qanunsuz əmək fəaliyyəti ilə məşğul olan 65 əcnəbi aşkarlanaraq Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq barələrində müvafiq tədbirlər görülüb.

Ötən ay Dövlət Miqrasiya Xidmətinə, ümumilikdə, 534 müraciət daxil olmuşdur ki, onlardan 147-si əcnəbilərə Azərbaycan Respublikasında müvəqqəti yaşamaq, əmək fəaliyyəti ilə məşğul olmaq üçün iş icazəsinin verilməsi, müvəqqətiolma müddətinin uzadılması, eləcə də vətəndaşlıq məsələləri ilə bağlı olmuşdur. Müraciətlərin hər biri ayrı-ayrılıqda Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə əsasən araşdırılmış, müvafiq qərarlar qəbul edilmişdir.

Hesabat dövründə olduğu yer üzrə qeydiyyata bağlı 387 müraciət qeydə alınaraq icrası təmin olunmuş, həmin müraciətlərdən 103-ü elektron xidmətlər portalı və elektron poçt üzərindən qəbul edilmişdir. Dövlət Miqrasiya Xidməti tərəfindən fəaliyyət istiqamətlərinə uyğun olaraq maarifləndirmə tədbirləri aparılmışdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin mətbuat xidməti***

*Milli dəyərlərimizi öyrənək və yaşadaq*

# Buta xalqımıza məxsus gözəllikdir



Dünyanın ən qədim xalqlarından olan Azərbaycan türklərinin tarixboyu bədii-estetik zövqünə uyğun dəyərlər sistemi formalaşıb. Bu dəyərlər sırasında milli ornamentlərimizin də özünəməxsus yeri var ki, onlardan biri də buta naxışıdır. Azərbaycan xalqının milli xüsusiyyətlərini özündə əks etdirən buta türk etnosunun mifoloji düşüncəsini ifadə edən simvol kimi şifahi və yazılı ədəbiyyatımızda, incəsənətimizdə geniş istifadə olunur.

Butanın yaranma tarixi naməlumdur. Şərq ölkələrində geniş yayılmış butanın tarixinə dair müxtəlif fikirlər söylənilib. İndiyədək onun tarixinin orta əsrlərə aid olduğu deyilirdisə, yeni tədqiqatlar bu fikirlərin doğru olmadığını göstərir. Naxçıvanda aparılan tədqiqatlar nəticəsində muxtar respublikada buta naxışının ən qədim nümunəsi tapılıb. Naxçıvan Dövlət Tarix Muzeyinin direktoru Fizzə Quliyevanın qənaətinə görə, son illər Naxçıvanda aparılan arxeoloji tədqiqatlar zamanı əldə olunan gil qablar üzərindəki buta təsvirləri bu naxışın tarixini xeyli qədimləşdirib. Tədqiqatçılar tərəfindən tarixi Son Eneolit dövrü kimi dəyərləndirilən buta naxışlı gil qablardan bir neçəsinə Ovçular təpəsində, birinə isə Xalac yaşayış yerində rast gəlinib. Buta naxışı həmin qabların gövdə hissəsində, simmetriyaya uyğun üç ədəd olmaqla boya ilə çəkilib.

Tədqiqatçıların bir çoxu butanı zərdüştlüklə əlaqələndirirlər. Onların fikrincə, qədim sanskrit dilində "butaputa-buta" od mənasını verir. Zərdüşt təliminə əsasən buta Günəşin, müqəddəs odun rəmzi, insanı bədnəzərdən, xəstəliklərdən qoruyan pak alov diliminin təsviridir.

"Buta" sözünün "butay" sözündən əmələ gəldiyini iddia edənlər də vardır. "Bu" və "tay" kəlmələrinin birləşməsi sayəsində bir cütlüyün yarısı mənasını ifadə edir. Buta haqqında bu günə kimi onlarla rəvayət, əfsanə yayılıb. Belə rəvayətlərdən birinə görə, Əmir Teymurun nəvəsi türkəsilli Babur şah tərəfindən ilk dəfə buta naxış kimi istifadə edilib. Başqa bir mənbədə deyilir ki, dünyanın yeddi möcüzəsindən biri olan məşhur tikili Tac Mahal da türk memarlarının və incəsənətinin bir nümunəsidir. 6-cı Babur hökmdarı Cahanşah tərəfindən mərhum xanımı Mümtaz Mahalın xatirəsinə həsr olunmuş bu sərdabənin tikintisində müxtəlif türk ellərindən, o cümlədən Azərbaycandan gələn sənətkarların yaxından iştirak etməsinin də nişanəsi kimi orada buta naxışının çox olmasıdır.

Bir çox mənbələrdə "Buta" sözünün başqa bir mənasının "qönçə" olduğu da qeyd edilir. Həqiqətən, bir çox xalça naxışları kimi, buta da qönçəni, gül ləçəyini xatırladır.

*Açılmamış butasan,*
*Məni saldın oda sən.*
*Mən o güldən deyiləm,*
*İyləyəsən, atasan.*

Butanın bir açması da nişan, nişangahdır. Bir bayatıda deyilir:

*Ay getdi batan yerə,*
*Mələklər yatan yerə.*
*Sinəmi buta qoydum,*
*Yar oxun atan yerə.*

Ustad sənətkarımız Aşıq Ələsgər də "buta" sözünü nişangah kimi işlədib:

*Sinəm qoydum müjganına buta yar,*
*Əsirgəmə, at oxların dal-dala.*

Göründüyü kimi, buta sözü özündə çox məna ehtiva edir. Əski türk dilində "buta" sözünün bir mənası da "yuva", "yurd"dur. Bayatılardan birində deyilir:

*Qəribəm, butam yoxdu,*
*Yetiməm atam yoxdu,*
*Düşdüm qəm dəryasına –*
*Qolumdan tutan yoxdu.*

Ümumiyyətlə, butanın rəmzi mənası barədə də müxtəlif fikirlər mövcuddur. Milli rəmzimizlə bağlı Naxçıvan Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyevanın da fikirlərini öyrəndik: "Butanın özünəməxsus forması və mənaları var. Bu orijinal naxış elementinə xalqımızın tarixi və mədəniyyəti ilə bağlı, demək olar ki, bütün mənbələrdə rast gəlinir. Xalqımız butanı həyatın simvolu, naxışı kimi simvolizə edib. Diqqət etdikdə, ilk baxışdan butanı yaranışın ilk rüşeymi formasında qəbul etmək olur. Bu mənada, bu incə naxış həyatın özü deməkdir".

Ülviyyə xanım qeyd etdi ki, buta bizim tariximizin, mədəniyyətimizin bir parçasıdır desək, yanılmarıq. Çünki bütün qədim xalçalarımız, memarlıq abidələrimiz buta nişanəsi ilə bəzədilib. Azərbaycanda buta qədimlərdən ən çox toxuculuq məmulatlarında, xüsusilə xalçalarımızda istifadə olunan elementdir. Xalçalarımızın, milli geyimlərimizin, sənətkarlıq nümunələrinin üzərində ən çox rast gəldiyimiz bu naxışın forması hər zaman düşündürücüdür. Heç bir həndəsi formaya uyğun gəlməyən butada sanki hər bir şey ardıcıl olaraq, düşünülərək bir nöqtədə birləşdirilib.

Rəssamın sözlərinə görə, buta forma etibarilə 4 qrupa bölünür: xalça bəzəyində istifadə edilən butalar ("Muğan buta", "Salyan buta", "Xilə buta", "Bakı buta", "Sarabi buta", "Gəncə buta", "Şirvan buta"), ailə-məişət həyatını ifadə edən butalar ("bala buta", "həmli buta", "balalı buta", "evli buta", "qoşaarvadlı buta" və sair), rəmzi məna daşıyan butalar ("cıqqa buta", "lələk buta", "küsülü buta", "qovuşan buta", "yazıh buta" və sair) və müxtəlif formalı butalar ("saya buta", "əyri buta", "dilikli buta", "qıvrım buta", "şabahd buta", "zərxara buta", "badamı buta", "qotazlı buta", "çiçəkli buta", "yanar buta" və sair). Rəmzi məna daşıyan butalar zaman keçdikcə tədricən müxtəlifməzmunlu və formalı motivlərlə zənginləşmişdir. Maraqlıdır ki, xalq arasında üz-üzə əks olunmuş butalara "sevgili buta", arxa-arxaya dayanmış butalara isə "küsülü buta" deyilir.

Araşdırmalar zamanı məlum olur ki, buta elementindən sovet hakimiyyəti illərində memarlıqda, demək olar ki, istifadə edilməyib. Binaların tikilməsində bir çox hallarda əcnəbi mütəxəssislər tərəfindən verilən layihələr qəbul olunurdu. Təbii ki, onlar da bu qədim türk naxış elementindən istifadə etməyiblər. Günümüzdə isə bu milli ornamentimiz binaların fasadında və bir çox yerlərdə də özünü göstərir.

*Muxtar respublikamızda mədəniyyətimizin incəliklərinə xüsusi həssaslıqla yanaşılır, milli estetik zövqümüzün ən incə detalı qorunub yaşadılır, gənc nəsillərə aşılanır. İstedadlı qadınlarımız toxuduqları xalçaların və digər nümunələrin üzərinə bu gün də bu naxışdan incilər həkk edir, memarlarımız diyarımızda butadan gözoxşayan gözəlliklər yaradırlar. Bu gün diyarımızda hansı ünvana üz tutsan, buta ornamentinə mütləq rast gəlirsən. Naxçıvan şəhərində də bir çox binaların fasadında, park və xiyabanlarda buta elementlərinə rast gəlmək olur. Buta bizə məxsus olan gözəllikdir, dəyərdir. Başqa sözlə, bizim incəsənətimizin tacıdır. Bu naxışda nənələrimizin əl izləri, ulularımızın imzası var. Bu milli ornamentimizi qorumaq vətəndaşlıq borcumuzdur.*

✍ **Gülcamal TAHİROVA**

***Dünən Naxçıvan Muxtar Respublika Xəstəxanasının konfrans zalında "Nadir irsi metabolik xəstəliklər – 1-ci tip irsi tirozinemiya" mövzusunda seminar keçirilib. Seminarın məqsədi nadir rast gəlinən tirozinemiya xəstəliyinin müalicəsi, xəstəliyin yaranmasının qarşısının alınması və xəstəlik zamanı qarşıya çıxan bəzi məsələlərin həlli istiqamətində görüləcək işlər haqqında müzakirələrin aparılması olub.***

# "Nadir irsi metabolik xəstəliklər – 1-ci tip irsi tirozinemiya" mövzusunda elmi-praktik seminar keçirilib



Seminarı giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin müavini Samrat Gəncəyeva səhiyyə sahəsinə göstərilən dövlət qayğısından danışıb. Bildirib ki, muxtar respublikada səhiyyənin inkişafı istiqamətində aparılan islahatların nəticəsidir ki, muxtar respublikada tibb müəssisələrinin infrastruktu yenilənir, tibb müəssisələrinin müasir elmli tibbi kadrlarla təmin olunmasına diqqət göstərilir, bu məqsədlə tibb işçiləri üçün müxtəlif seminar və konfranslar təşkil edilir.

Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Uşaq Xəstəxanasının baş həkimi Rəhim Rəhimov bildirib ki, Naxçıvanda bütün kateqoriyadan olan uşaqların, eləcə də sağlamlıq imkanları məhdud uşaqların sağlamlığının təmin olunması istiqamətində mühüm işlər görülür. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamları ilə "Naxçıvan Muxtar Respublikasında uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı" və "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"nın icrası diqqətdə saxlanılır. Çıxışda 1-ci tip irsi tirozinemiya haqqında da məlumat verilib.

Uşaq qastroenteroloqu Anar Tağıyev "Uşaqlarda 1-ci tip irsi tirozinemiya" mövzusunda, "Nobel İlaç Şirkəti" Medikal Mərkəzin direktoru həkim Aynur Qasımova isə "1-ci tip irsi tirozinemiyanın müalicəsi – nitisinon" mövzusunda məruzə ediblər. Məruzəçilər "1-ci tip irsi tirozinemiya" xəstəliyi ilə bağlı elmi araşdırmaları, həmçinin digər mühüm məlumatları iştirakçıların diqqətinə çatdırıblar.

Sonda mövzu ətrafında müzakirələr aparılıb, suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

# Bələdiyyə orqanlarına metodik köməklik göstərilib

Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin təşkilatçılığı ilə muxtar respublika ərazisində fəaliyyət göstərən bələdiyyə orqanlarına metodik köməklik göstərilməsi davam etdirilib.

Cari ilin əvvəlindən başlayaraq ötən 5 ay ərzində nazirliyin əməkdaşları Naxçıvan şəhəri, Babək, Kəngərli, Culfa, Ordubad və Sədərək rayonlarında fəaliyyət göstərən bələdiyyələrin kargüzarlıq sənədlərinə baxış keçirib. Bələdiyyə orqanlarında qeydiyyat jurnallarının işlənilmə qaydaları izah edilib, lazımi sənəd nümunələri ilə təmin olunublar. Bələdiyyə üzvləri və sədrləri ilə keçirilən görüşlərdə qanunvericiliyin tələbləri izah edilib, onlara bələdiyyə mülkiyyətində olan torpaqların icarəyə verilməsi zamanı qanunvericiliyin tələblərinə əməl olunması tövsiyə edilib. Bələdiyyə sədrlərinə "Metodik sənədlər toplusu" və "Dövlət büdcəsindən yerli büdcələrə maliyyə vəsaitinin (dotasiya və subvensiyanın) ayrılmasına və istifadəsinə dair" metodik vəsaitlər təqdim olunub.

Görüşlərdə bildirilib ki, muxtar respublikada bütün bələdiyyələr üçün yaxşı iş şəraiti yaradılıb, yeni inzibati mərkəzlərdə bələdiyyə orqanları üçün xidməti otaqlar ayrılıb, lazımi təchizatla təmin ediliblər. Eyni zamanda bələdiyyə qurumlarına kommunal təyinatlı nəqliyyat vasitələri və xidməti minik avtomobilləri, təmizlik qutuları təqdim edilib. Bunun müqabilində də bələdiyyələr işlərinə məsuliyyətlə yanaşmalı, kargüzarlıq sənədlərini vaxtında işləməli, qəbul olunan bələdiyyə qərarlarında qanunvericiliyin tələbləri gözlənilməlidir.

Hazırda Şərur rayonu üzrə fəaliyyət göstərən bələdiyyə orqanlarına metodik köməkliyin göstərilməsinə başlanılıb.

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin mətbuat xidməti***

# Fövqəladə hallara hazırlıq diqqətdə saxlanılır

*Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar Nazirliyi və onun struktur qurumları tərəfindən muxtar respublikada mülki müdafiə, əhalinin və ərazilərin fövqəladə hallardan qorunması, fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması, yanğın təhlükəsizliyinin, tikintidə, sənayedə və dağ-mədən işlərində texniki təhlükəsizliyin təmin olunması istiqamətində qarşıya qoyulmuş vəzifələrin icrası cari ilin may ayında da təmin edilib.*

Nazirliyin hazırlıq planına uyğun olaraq Dövlət Arxiv İdarəsində "Baş vermiş fövqəladə hadisələrin nəticələrinin aradan qaldırılması zamanı idarəetmənin təşkili, Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzinin nazirliyin struktur qurumları ilə qarşılıqlı fəaliyyəti" mövzusunda taktiki-xüsusi təlim keçirilib.

Hesabat dövründə avtomobil və xüsusi təyinatlı nəqliyyat vasitələrinin yaz-yay mövsümü istismarı şəraitinə keçidi ilə əlaqədar Mülki Müdafiə Alayında və Kəngərli Rayon



Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsində nümunəvi məşğələ keçirilib, texnikalara xidmət göstərilib, təyin olunan müddətdə mövsümi keçid başa çatdırılıb.

Aparılan reydlər zamanı 4 min 167 yaşayış evinə baxış keçirilib, yanğın cəhətdən təhlükəli olan 28 yaşayış evində elektrik xətti izolyasiya olunub, 112 qaz cihazının şlanqı qısaldılıb, 32 yaşayış evində təbii qaz sızması aradan qaldırılıb, 1 standarta uyğun olmayan qaz sobasının, 16 nasaz şofben tipli suqızdırıcının və 179 tezqatlanan tüstü borusunun istismarı dayandırılıb. 12 təhlükə potensiallı obyektdə texniki təhlükəsizliyə əməl olunması məqsədilə baxış-yoxlamalar keçirilib. Naxçıvan şəhərində fəaliyyət göstərən 6 ictimai iaşə obyektində qaz təsərrüfatında texniki təhlükəsizlik qaydalarının tələblərinə əməl olunmasına nəzarət olunub, 7 müəssisədə 26 qurğu sınaqdan keçirilərək texniki təhlükəsizlik sertifikatı ilə təmin edilib.

Ay ərzində ticarət mərkəzlərində, ictimai iaşə obyektlərində və yanacaqdoldurma məntəqələrində yanğın təhlükəsizliyi tələblərinin yerinə yetirilməsi vəziyyətinə baxılıb, maarifləndirici söhbətlər aparılıb. Muxtar respublikanın su hövzələrində insanların təhlükəsizliyini təmin etmək üçün 16 yerdə xəbərdaredici lövhələr hazırlanaraq quraşdırılıb. Ot-taxıl yığımı kampaniyasına hazırlıqla əlaqədar biçin dövrü ərzində taxıl zəmilərinin yanğınlardan qorunması və qabaqlayıcı tədbirlərin həyata keçirilməsi məqsədilə 123 kombayn və digər kənd təsərrüfatı texnikalarına yanğına qarşı texniki baxışlar keçirilib, 217 sahibkar, torpaq mülkiyyətçisi və kombayn sürücüsü ilə maarifləndirici söhbətlər aparılıb. Hazırlıq mərhələsində 12 un dəyirmanında və 2 yem anbarında yanğın-texniki müayinələr aparılıb, maarifləndirici tədbir keçirilib.

Hesabat ayında 44 nəfər Naxçıvan Şəhər Peşə Liseyində qazanxana maşinisti ixtisası üzrə kurslara cəlb edilib.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

### İtmişdir

Şərur rayon Alışar kəndində yaşamış Əliyeva Leylan Fərəc qızının adına olan JN-279A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Qurbanov Xəyal Vahid oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 511